

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

*Qəzet 1921-ci ildən çıxır*

Sayı: 61 (20.962)

*7 aprel 2014-cü il, bazar ertəsi*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərə Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə aşağıdakı fəxri adlar verilsin:

**“Əməkdar Elm Xadimi”**

Həsənli Oruc Qafar oğlu

Məhərrəmov Saleh Heydər oğlu

**“Əməkdar Müəllim”**

Əliyeva Lətafət Nəriman qızı

Seyidova Sevda Əli qızı

Vəliyeva Hüsniyyə Həsən qızı

**“Əməkdar Mədəniyyət İşçisi”**

Əsədova Nəzakət Əsəd qızı

**“Əməkdar Rəssam”**

Qurbanov Həsən Bulut oğlu

**“Əməkdar Həkim”**

Bayramova Tamilla Yusif qızı

Həsənov Nüsrət Firudin oğlu

**“Əməkdar Tibb İşçisi”**

Hüseynova Validə Firudin qızı

**“Əməkdar Jurnalist”**

Əliyeva Şölə Qadir qızı

**“Əməkdar Mühəndis”**

Bağırov İbrahim Süleyman oğlu.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 5 aprel 2014-cü il*

## Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan aşağıdakı şəxslər Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Aslanov Əli Qaçay oğlu

Baxşəliyev Vəli Baxşəli oğlu

Eyvazov Həsənəli Cahangir oğlu

Eyvazov Məmmədəli Əhməd oğlu

Əliyev Asim Yediyar oğlu

Həsənov Əsgər İbrahim oğlu

Quliyev Musa Rəhim oğlu

Məmmədov Rafiq Ağəli oğlu

Novruzov Namiq Yaqub oğlu

Sadiqov İlqar Beytulla oğlu.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 5 aprel 2014-cü il*

# Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül qoyulmuşdur





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında” 2014-cü il 14 yanvar tarixli Sərəncamı ilə bu il ölkəmizdə muxtar respublikanın yaradılmasının 90 illiyi geniş qeyd olunur.

Aprelin 6-da tədbirlər planına əsasən, Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül qoyulmuşdur.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xalqımızın böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmişdir.

Nazirlik, komitə, baş idarə və müəssisələrin rəhbərləri, hərbi hissələrin komandirləri, elm və təhsil müəssisələrinin nümayəndələri də abidə önünə tər güllər düzmüşlər.

90 il bundan əvvəl yaradılan Naxçıvan Muxtar Respublikası çətin, mürəkkəb və eyni zamanda parlaq bir inkişaf yolu keçmişdir. Ümummilli liderimiz Heydər Əliyev Naxçıvanın muxtariyyət statusu qazanmasını yüksək dəyərləndirərək demişdir: ***“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əlindən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq”.***

Naxçıvanın 1924-cü ildə qazandığı muxtariyyət statusu gərgin siyasi mübarizələrin nəticəsində əldə olunmuşdur. Yerli əhali tərəfindən Naxçıvanın müdafiəsi uğrunda aparılan mübarizə və naxçıvanlı diplomatların qətiyyətli mövqeyi muxtariyyətin qazanılmasında mühüm amil olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin 1969-cu ildə ölkəmizdə hakimiyyətə gəlişindən sonra Azərbaycanın digər əraziləri kimi, Naxçıvan Muxtar Respublikasının da sosial-iqtisadi inkişafı sürətlənmiş, görülən işlər Naxçıvanın və onun muxtariyyətinin qorunub saxlanılması üçün real əsaslar yaratmışdır. Həmin dövrdən başlayaraq Naxçıvan Muxtar Respublikasında genişmiqyaslı quruculuq tədbirləri aparılmış, iri sənaye müəssisələri, zavodlar, fabriklər fəaliyyətə başlamış, bütün sahələrdə uğurlu nailiyyətlər qazanılmışdır.

Ötən əsrin 90-cı illərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvanın blokadaya salınması və muxtar respublika ərazilərinin növbəti dəfə itirilmək təhlükəsi ilə üzləşdiyi bir vaxtda da ulu öndər Heydər Əliyev şəxsiyyəti və siyasi iradəsi bu diyarı təhlükələrdən xilas etmişdir. Bu mənada dahi şəxsiyyətin qədim diyarda yaşayıb işlədiyi 1990-1993-cü illər Naxçıvanın muxtariyyətinin möhkəmləndirilməsində, onun düşmən hücumlarından qorunmasında mühüm mərhələ təşkil edir. Müstəqil Azərbaycana rəhbərliyi dövründə isə ümummilli liderin Naxçıvanla bağlı qəbul etdiyi qərarlar, bu diyara səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər Naxçıvanın hərtərəfli inkişafını təmin etmiş, muxtar respublika çiçəklənən diyara çevrilmişdir.

***“Naxçıvanın qədim dövlətçilik tarixi vardır. Bu, Azərbaycanın dövlətçilik tarixidir”,*** – deyən ulu öndər Heydər Əliyevin ideyaları Naxçıvanda yeni inkişaf erasının başlanmasına rəvac vermiş, muxtar respublikamızda bu siyasətin uğurla davam etdirilməsi nəticəsində inkişafa nail olunmuşdur. Bu gün muxtar respublikada əldə olunan bütün nailiyyətlərdə ümummilli liderimizin işi və əməlləri yaşayır.

*Ardı 2-ci səhifədə*

Zaman etibarilə o qədər də böyük olmayan bu dövrdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı dinamik inkişaf etmiş, sosial proqramlar qəbul edilərək icra olunmuşdur.

Naxçıvanın muxtar respublika statusu bu bölgənin 90 illik tarixi taleyində, onun ərazisinin qorunub saxlanılmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malik olmuşdur. Bu illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfəsini vermişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir”.***

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və tədbir iştirakçıları Naxçıvan şəhərindəki Şəhidlər Xiyabanını da ziyarət etmişlər.

Ali Məclisin Sədri Şəhidlər Xiyabanındakı “Ana abidəsi”nin önünə gül düzmüş, şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir.

Sonra Naxçıvan Qarnizonunun hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının Dövlət himni səslənmişdir.

Ali Məclisin Sədri Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə öz canlarından keçərək şəhidlik zirvəsinə ucalanların məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş türk ordusunun bu torpaqlarda şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək tər güllər qoymuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikası – 90*

# Rumıniyada Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş tədbir keçirilmişdir

Bu il Naxçıvan Muxtar Respublikasının yaradılmasından 90 il keçir. Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində əhəmiyyətini nəzərə alan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 14 yanvar 2014-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Bu Sərəncamda deyildiyi kimi: ***“Azərbaycanın qədim bölgəsi olan Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır”.***

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi təkcə ölkəmizdə, muxtar respublikamızda deyil, o cümlədən Azərbaycanın hüdudlarından uzaqlarda da qeyd olunur. Bu tədbirlərdən biri də Azərbaycan-Rumıniya Gənclər və Mədəniyyət Assosiasiyasının təşəbbüsü və Azərbaycan Dövlət Neft Şirkətinin Rumıniya nümayəndəliyinin təşkilatçılığı ilə Rumıniyanın paytaxtı Buxarest şəhərində keçirilmişdir.

Azərbaycanlı və rumın deputatların, Azərbaycanın, Türkiyənin, Türkmənistanın və Belarusun səfirlərinin, Rumıniyanın Xarici İşlər, İqtisadiyyat nazirliklərinin, Mədəniyyət İnstitutunun rəhbərliyi, əməkdaşları və başqalarının iştirak etdiyi tədbirdə Naxçıvanın tarixi barədə ətraflı məlumat verilmişdir.

Bildirilmişdir ki, ulu öndər Heydər Əliyev hələ ötən əsrin 90-cı illərində – Azərbaycanın çətin və ağır günlərində Naxçıvanda yaşayıb fəaliyyət göstərmiş, Azərbaycanın xilasına və inkişafına bu qədim diyardan başlamışdır.

Tədbirdə çıxış edən Azərbaycan-Rumıniya Gənclər və Mədəniyyət Assosiasiyasının sədri İqbal Hacıyev qeyd etmişdir ki, Naxçıvanın muxtariyyət qazanması Azərbaycan xalqının ən mühüm nailiyyətlərindən biridir. Bu gün özünün yüksək qiymətini tapan və model kimi dəyərləndirilən Naxçıvanın muxtariyyət statusu bölgənin tarixi taleyində əhəmiyyətli rola malik olmuş, Azərbaycanın bu qədim ərazisinin qorunub saxlanmasında və təhlükəsizliyinin təmin olunmasında mühüm faktor kimi çıxış etmişdir.

Azərbaycan Dövlət Neft Şirkəti Rumıniya nümayəndəliyinin rəhbəri Həmzə Kərimov vurğulamışdır ki, ulu öndərin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyası Naxçıvan Muxtar Respublikasının çoxcəhətli inkişafını şərtləndirmişdir. Bu gün Naxçıvan Muxtar Respublikası 90 illik yubileyini əldə olunan yüksək nailiyyətlər, həyata keçirilən çoxşaxəli quruculuq işləri ilə qarşılayır.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvü Qənirə Paşayeva Naxçıvanın muxtariyyətini gərgin mübarizələrin nəticəsində əldə edilən mühüm tarixi nailiyyət kimi dəyərləndirmişdir. Bildirilmişdir ki, bu gün Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi qeyd edilir. Bu, Naxçıvanın muxtariyyət tarixidir. Ancaq Naxçıvanın çox qədim tarixi vardır. Naxçıvan Azərbaycanın qədim bölgələrindən biri olmaqla bərabər, həm də dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Gəmiqaya abidələri dünya tarixinin ən qədim abidələri sırasındadır.

Tədbirdə Rumıniya-Azərbaycan parlamentlərarası işçi qrupunun sədri Yulian Yanku Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi münasibətilə Azərbaycan xalqını təbrik etmiş, xalqlarımız arasında əlaqələrin daha da möhkəmləndirilməsində parlamentlərarası işçi qrupunun rolunu yüksək qiymətləndirmişdir.

Həmçinin tədbirdə Rumıniyanın Azərbaycana təyin olunan ilk səfiri Tahsin Cəmil ölkəmizdə diplomatik fəaliyyəti dövründə Naxçıvana iki dəfə səfər etdiyini, muxtar respublika rəhbəri ilə görüşdüyünü bildirmiş, muxtar respublikada böyük quruculuq işləri aparıldığını diqqətə çatdırmışdır. Tahsin Cəmil vurğulamışdır ki, Naxçıvan Muxtar Respublikası çox böyük inkişaf yolu keçir. Artıq Naxçıvan şəhəri və muxtar respublikanın regionları öz müasirliyi ilə seçilir. Qədim tarixə malik olan Naxçıvan Muxtar Respublikasında tarixi-mədəni irsin qorunması istiqamətində ardıcıl tədbirlər görülür, tarixi abidələr təmir olunur.

Milli Məclisin deputatı Azay Quliyev demişdir ki, bu yubileyin keçirilməsində məqsəd Naxçıvanın tarixi, mədəniyyəti, keçdiyi inkişaf yolu barədə dünya ictimaiyyətinə məlumat verməkdir. Mənfur ermənilər Naxçıvana qarşı daim ərazi iddiası irəli sürürlər. Belə tədbirlərin keçirilməsi qədim Azərbaycan torpağı olan Naxçıvanın dünya ictimaiyyətinə ətraflı tanıdılmasına imkan verir. Bu gün Naxçıvan Cənubi Qafqazda özünün idarəetmə formasına görə nümunəvi bir ərazidir. Naxçıvan Muxtar Respublikası blokada şəraitinə baxmayaraq, sürətlə inkişaf edir.

Tədbirdə Naxçıvana həsr olunmuş film nümayiş etdirilmişdir.

Azərbaycan və rumın mahnılarından ibarət geniş bayram konserti olmuşdur.

Sonda Naxçıvan Muxtar Respublikasının tarixindən, ictimai-mədəni həyatından bəhs edən kitablardan ibarət sərgiyə baxış olmuşdur. Sərgidə nümayiş etdirilən kitab və jurnallar tədbir iştirakçılarına paylanılmışdır.

**“Şərq qapısı”**

**Ulu öndər Heydər ƏLİYEV:** ***Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir.***

# Naxçıvanın arxeoloji abidələri tarixi irsimizin varislik rəmzidir



**Nəcəf MÜSEYİBLİ**
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu direktorunun elmi işlər üzrə müavini***

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında” 14 yanvar 2014-cü il tarixli Sərəncam imzalamışdır. Sərəncamda qeyd edilir ki, “Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır”.***

Doğrudan da, Naxçıvan bölgəsinin zəngin abidələri Azərbaycanın milli maddi-mədəni irsinin ən parlaq nümunələri sırasındadır. Naxçıvan minilliklər ərzində coğrafi mövqeyi və tarixi ənənələri ilə vəhdət təşkil etməklə Azərbaycanın mühüm strateji əhəmiyyətə malik qədim bir bölgəsidir. Azərbaycanın qədim mədəniyyətlərinin, tarixi varisliyinin öyrənilməsində Naxçıvanın arxeoloji abidələrinin müstəsna əhəmiyyəti vardır.

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan diyarı özünəməxsus təbii-coğrafi şəraiti ilə tarixin bütün mərhələlərində insanların burada məskunlaşmasına səbəb olmuşdur.

Şimaldan Kiçik Qafqazın Dərələyəz və Zəngəzur dağ silsilələri, cənubdan Araz çayı ilə sərhədlənən Naxçıvan bölgəsi Araz çayının və onun qollarının vadilərindəki münbit torpaqları, yüksək dağlıq ərazilərindəki otlaqları ilə qədim əkinçilik və maldarlığın inkişaf etdirilməsi üçün əlverişli şəraitə malik olmuşdur. Məhz bu səbəbdən Naxçıvan ərazisində tarixin bütün mərhələlərini əks etdirən tarixi-arxeoloji abidələr mövcuddur.

Naxçıvan ərazisindəki abidələr barədə hələ XVII-XIX əsr Avropa və Osmanlı səyyahları (Jan Şardən, Övliya Çələbi, Debua-de Monpere və başqaları) məlumatlar vermişlər. Naxçıvan abidələrinin elmi əsaslara söykənən ilk arxeoloji qazıntı işləri XX əsrin 20-ci illərində aparılmışdır. 1926-cı ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti tərəfindən Naxçıvana tanınmış alim İ.İ.Meşaninovun rəhbərliyi, Ə.Ələkbərov, İ.Cəfərzadə, Ə.Ələsgərzadə və İ.Əzimbəyov kimi bu sahədə ilk milli kadrların iştirakı ilə ekspedisiya göndərilmişdir. Ekspedisiya indiki Babək rayonu ərazisində, Araz çayı sahilində e.ə. II minilliyə aid Qızılburun nekropolunda qazıntı işləri aparmışdır.

İkinci Dünya müharibəsinə qədərki illərdə Naxçıvan abidələri barədə ən geniş və tutarlı məlumatlar görkəmli arxeoloq və etnoqraf Ələsgər Ələkbərov tərəfindən verilmişdir. Onun rəhbərliyi ilə 1936-cı ildə Naxçıvana göndərilmiş ekspedisiya Şərur və Kəngərli rayonları ərazisindəki Son Tunc – Erkən Dəmir dövrünə (e.ə. II minilliyin sonu – I minilliyin əvvəli) aid Oğlanqala, Şortəpə və Şahtaxtı abidələrində arxeoloji tədqiqat işləri aparmışdır. Ə.Ələkbərov bu tədqiqatlar nəticəsində Naxçıvan ərazisində qeyd edilən dövrə aid siklop tikililərin, şəhər və kəndtipli yaşayış yerlərinin olduğunu və bu bölgədə inkişaf etmiş sinifli cəmiyyətin – dövlətin mövcudluğunu və bölgənin Yaxın Şərq (Assuriya) mədəniyyətləri ilə əlaqələrinin olduğunu yazmışdır.

Babək rayonu ərazisindəki I Kültəpə qədim yaşayış məskənində görkəmli Azərbaycan arxeoloqu Osman Həbibullayevin apardığı qazıntı işləri, bütövlükdə, Qafqaz arxeologiyasında Neolit, Eneolit və İlk Tunc dövrlərinin (e.ə. VI-III minillik) tədqiqində mühüm dönüş nöqtəsi oldu. Məhz I Kültəpənin qazıntıları ilə Qafqazda ilk dəfə olaraq Neolit və Eneolit (xalkolit) dövrlərinin erkən əkinçilik mədəniyyəti aşkara çıxarılmış oldu. 1951-1964-cü illərdə bu abidədə aparılan arxeoloji qazıntılar burada 7 min ilə yaxın böyük bir tarixi mərhələdə həyatın ardıcıl davam etdiyini sübuta yetirmişdir. Qafqazda analoqu olmayan I Kültəpə yaşayış məskəninin mədəni təbəqəsinin qalınlığı 22 metrə çatır. Heç də təsadüfi deyildir ki, etalon hesab edilən bu abidə Neolit və Eneolit dövrlərini əhatə edən “Kültəpə arxeoloji mədəniyyəti”nin müəyyən edilməsinə səbəb olmuşdur. I Kültəpədə aparılan arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılan maddi-mədəniyyət qalıqları Naxçıvanın qədim əhalisinin təsərrüfat həyatı, müxtəlif sənətkarlıq sahələri, dəfn adətləri, Yaxın Şərqin qədim sivilizasiya mərkəzləri ilə əlaqələri barədə dəyərli məlumatlar vermişdir.

XX əsrin 60-80-ci illərində Naxçıvan Muxtar Respublikası ərazisində arxeoloji tədqiqat işləri daha da genişlənmişdir. Bu mərhələdə ən geniş arxeoloji araşdırmalar AMEA-nın müxbir üzvü Vəli Əliyev tərəfindən aparılmışdır. Keçən əsrin 60-cı illərindən başlayaraq çoxtəbəqəli II Kültəpə yaşayış yerinin tədqiqatları əsasında V.Əliyev burada Orta Tunc dövründə – e.ə. II minilliyin birinci yarısında erkən şəhərtipli yaşayış yerinin olduğunu əsaslandırmışdır. Professor V.Əliyev 1968-ci ildə Ordubad rayonu ərazisində Tunc dövrünə – e.ə. IV minilliyin sonu-II minilliyin sonuna aid qayaüstü təsvirlərlə zəngin Gəmiqaya abidəsini qeydə almış və tədqiqatlar aparmışdır.

Muxtar respublika ərazisində ən qədim arxeoloji abidə Şərur rayonunun Tənənəm kəndi yaxınlığındakı ibtidai insanların məskunlaşdığı Qazma mağara düşərgəsidir. Ötən əsrin 80-ci illərində mağarada aparılan tədqiqatlar burada ibtidai insanların Orta Paleolit dövründə yaşadığını sübut etmişdir.

Ordubad rayonunda e.ə. II minillikdən başlayaraq orta əsrlərə qədərki dövrləri əhatə edən yaşayış yerləri və qəbir abidələri tədqiq edilmişdir. Naxçıvanın müxtəlif yerlərində e.ə. IV-I minilliklərə aid yaşayış yerləri, kənd və erkən şəhərtipli məskənlər, müxtəlif növ qəbir abidələri aşkar edilib, qazıntı işləri aparılmışdır. Geniş qazıntı işləri aparılan abidələrdən biri də e.ə. II minilliyin sonu – I minilliyin əvvəlinə aid şəhərtipli Şahtaxtı abidələri kompleksidir. Həmin illərdə Naxçıvan ərazisində Tunc dövrünə aid çoxsaylı Govurqala (Vayxır), Qazançıqala, Qalacıq, Çalxanqala və sair müdafiə istehkamları tədqiq edilmişdir.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində, respublikanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikası ərazisində də qədim tariximizin, maddi-mədəni irsimizin öyrənilməsinə və qorunmasına böyük diqqət yetirilirdi. Naxçıvanda bütün XX əsr ərzində ən irimiqyaslı arxeoloji qazıntı işləri, çoxsaylı abidələrin qeydə alınması, maddi-mədəniyyət qalıqlarının toplanması və geniş ictimaiyyətə təbliğ edilməsi üçün tarix-diyarşünaslıq muzeylərinin yaradılması məhz Heydər Əliyevin bilavasitə diqqət və qayğısı sayəsində həyata keçirilmişdir.

Sovet imperiyası dağıldıqdan sonra ölkəmiz üçün ağır 90-cı illərdə, bütün sahələrdə olduğu kimi, elmdə də durğunluq dövrü hökm sürürdü. 1991-1993-cü illərdə Naxçıvana rəhbərlik edən ulu öndər Heydər Əliyevin müdrik, fədakar siyasəti nəticəsində Ermənistan tərəfindən blokadaya alınmış muxtar respublika düşmənə qarşı qəhrəmanlıqla mübarizə apararaq işğaldan xilas oldu. Xalqın tələbi ilə Azərbaycana rəhbərliyi öhdəsinə götürən Heydər Əliyev 90-cı illərdə müstəqil Azərbaycan dövlətini yaratmaqla respublikamızın siyasi, hərbi, iqtisadi inkişafının, mədəni, elmi yüksəlişinin təməlini qoydu. Ulu öndərin uzaqgörən siyasəti nəticəsində XX əsrin ilk illərindən Azərbaycan sürətli inkişafa qədəm qoydu. Şübhəsiz, bu inkişaf özünü elm sahəsində də göstərməyə başladı.

Xalqımızın maddi-mədəni irsinin öyrənilməsinin zəruriliyini önə çəkən ulu öndər Heydər Əliyev Azərbaycanın qədim tarixinin öyrənilməsində Naxçıvan abidələrinin müstəsna əhəmiyyətini nəzərə alaraq, 2001-ci ildə muxtar respublikaya geniş tərkibli arxeoloji ekspedisiyanın ezam edilməsi barədə göstəriş verdi. Bu sətirlərin müəllifinin rəhbərlik etdiyi, bir neçə dəstədən ibarət “Naxçıvan-Gəmiqaya” arxeoloji ekspedisiyası yaradıldı. İki il fəaliyyət göstərən bu ekspedisiyanın əsas tədqiqat obyekti Ordubad rayonu ərazisində, Kiçik Qafqazın Azərbaycan Respublikası ərazisində ən yüksək zirvəsi olan

*Ardı 3-cü səhifədə*



(3906 m) Gəmiqaya dağının yamaclarındakı abidələr kompleksi – Tunc dövrünə aid qayaüstü rəsmlər, qəbir abidələri və yurd yerləri olmuşdur. Burada 1500-ə qədər qayaüstü təsvirlər qeydə alınmış, həmin abidələrdə arxeoloji qazıntı işləri aparılmışdır. Bundan əlavə, Gəmiqaya təsvirləri Azərbaycanın e.ə. IV-II minilliklərdə Yaxın Şərq mədəniyyətləri ilə əlaqələrinin tarixinin tədqiq edilməsi üçün əvəzsiz mənbələrdir. Bu abidədə aşkar edilmiş bir sıra rəsmlərin ən yaxın analoqlarına Yaxın Şərq incəsənətində rast gəlinir.

Gəmiqaya rəsmləri Azərbaycanın qədim tarixinin, maddi və mənəvi mədəniyyətinin, incəsənətinin, eyni zamanda xalqımızın etnogenez tarixinin öyrənilməsi üçün olduqca zəngin, dəyərli mənbələrdir. Burada yalnız bir nümunə göstərməklə kifayətlənirik. Belə ki, Gəmiqayada 252 №-li daşda canavarın keçiyə hücum etməsi, daha doğrusu, Azərbaycan folklorunda, etnoqrafiyasında bu günə qədər saxlanmış və heyvandarlar tərəfindən icra edilən "qurd ağzı bağlama" ayini təsvir edilmişdir. Bununla əlaqədar burada üz-üzə dayanmış canavar və keçinin arasından hansısa əşyanın bağlandığı uzun xətt (kəndir) çəkilmişdir. Etnoqrafik tədqiqatlar göstərir ki, "qurd ağzı bağlama" ovsununun icrası zamanı qırxlığın ağzını iplə və ya kəndirlə bağlayırlar. Gəmiqayadakı Tunc dövrünə aid bu səhnədə "qurd ağzı bağlama" səhnəsi, demək olar ki, bütün mahiyyəti ilə təsvir edilmişdir. Göründüyü kimi, Gəmiqaya rəsmləri Azərbaycan folklorunun minilliklər öncəyə – Tunc dövrünə bağlandığını əyani surətdə nümayiş etdirməklə yanaşı, xalqımızın etnogenez tarixinin tədqiqi üçün tutarlı faktlar verir.

Bundan əlavə, ekspedisiya Naxçıvanın bütün rayonlarında əvvəllər elmə məlum olmayan onlarca arxeoloji abidələr aşkar etmiş və qazıntı işləri aparmışdır. Bunlardan Sədərək rayonunda Son Tunc – Erkən Dəmir dövrünə (e.ə. II minilliyin sonu – I minilliyin əvvəlinə) aid Sədərək qalasını, Cıdatəpə yaşayış yerini, Tunc dövrünün müxtəlif mərhələlərinə aid qəbir abidələrini, Şərurda Eneolit və İlk Tunc Dəmir dövrlərinə aid Ovçular təpəsi, Aşağı Daşarx yaşayış yerlərini və Qarabulaq kurqanlarını, Orta Tunc dövrünə aid Nəhəcir abidələrini, Babək rayonunda Antik dövrə aid Meydantəpə yaşayış yerini və sair abidələri göstərmək olar.

Ulu öndərin müdrik siyasətini böyük uğurla davam etdirən, ölkəmizi dünyanın ən sürətlə inkişaf edən dövlətləri sırasına çıxaran Azərbaycan Respublikasının Prezidenti



cənab İlham Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən 2008-2009-cu illərdə aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2008-ci il 5 fevral tarixli Sərəncamı Azərbaycanda arxeologiya elminin inkişafında yeni mərhələnin başlanğıcı oldu. Bundan əlavə, cənab Prezident "Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" 2012-ci il 26 aprel tarixli Sərəncam imzalamışdır.

Bu sərəncamların icrası ilə əlaqədar olaraq, Arxeologiya və Etnoqrafiya İnstitutunun 40-a yaxın ekspedisiyası respublikamızın bütün bölgələrində genişmiqyaslı arxeoloji qazıntı işləri aparmışlar. Bunlardan 8 ekspedisiya yalnız Naxçıvan Muxtar Respublikası abidələrində tədqiqat işlərini həyata keçirmişdir. Bu ekspedisiyalar AMEA Naxçıvan Bölməsinin mütəxəssisləri ilə sıx əməkdaşlıq şəraitində çalışır, eyni zamanda Şərur rayonundakı Ovçular təpəsi və Oğlanqala abidələrində Fransa və ABŞ alimlərinin də daxil olduğu beynəlxalq ekspedisiyalarda fəaliyyət göstərirlər. Son 6 ildə bu ekspedisiyalar Şərur və Sədərək rayonlarında Paleolit dövrü Qazma mağara düşərgəsində, Eneolit və İlk Tunc dövrlərinə aid Ovçular təpəsi, Maxta,



Ərəbyengicə, Xələc, Sədərək, Babək rayonunda Orta Tunc dövrünə aid II Kültəpə, Ordubad rayonunda Erkən, Orta və Son Tunc dövrlərinə aid Plovdağ, Sumbatan, Rəsul dərəsi, Kəngərli rayonunda Son Tunc – İlk Dəmir dövrünə aid Şahtaxtı, Erkən Dəmir (e.ə. I minilliyin birinci yarısı) və Antik dövrə aid Şərur rayonundakı Oğlanqala və Babək rayonunda Meydantəpə abidələrində ətraflı arxeoloji qazıntı işləri aparmışlar.

Bütün bu arxeoloji tədqiqatlar minilliklər ərzində Naxçıvanın qədim əhalisinin maddi və mənəvi mədəniyyəti, dəfn adətləri, beynəlxalq əlaqələri, dövlətçilik ənənələri tarixinin öyrənilməsinə böyük töhfələr vermişdir. Naxçıvan abidələrində aparılan arxeoloji tədqiqatlar burada həyatın minilliklər ərzində fasiləsiz davam etdiyini və bu ərazinin özünəməxsus ənənələri ilə tarixən formalaşan bir bölgə olduğunu göstərmişdir. Məhz bu baxımdan Naxçıvan abidələri Azərbaycan xalqının etnogenezinin avtoxtonluğunu və tarixi varisliyini inkaredilməz faktlarla sübut edən müstəsna əhəmiyyətə malik mənbələrdir.

*"Xalq qəzeti"*
*6 aprel 2014-cü il*

## Naxçıvanın müasir tarixi nailiyyətləri: iqtisadi yüksəliş, sosial tərəqqi və mədəni intibah

***Müasir dünyanın mənzərəsində elə bir ölkə çətin tapılar ki, o, digərlərinin onilliklər boyu keçdiyi yolu qısa bir müddət ərzində qət etməklə əsas inkişaf göstəriciləri üzrə diqqətləri özünə cəlb edə bilsin. Bu mənada həm daxili, həm də xarici siyasətdəki uğurları, innovativ yeniliklərin cəmiyyət həyatına tətbiqi və regional inkişafdakı nailiyyətləri ilə Azərbaycan Respublikası dünya ölkələri arasında öz nüfuzunu artıraraq region müstəvisindən çıxmış və qlobal güclər ailəsinə doğru sürətlə irəliləməkdədir. Hərtərəfli inkişafı, ölkə vətəndaşlarının rifah və təhlükəsizliyinin təmin olunmasını yalnız öz daxili imkanları hesabına həyata keçirən, bunun üçün lazım olan anda və lazım olan yerdə bütün resursları bir məqsədə yönəldə bilən güclü iqtisadiyyat modeli müstəqil Azərbaycanda uğurla tətbiq edilməkdədir. Demokratik rifah cəmiyyəti qura bilmək üçün ölkənin hər bir vətəndaşının həyat səviyyəsinin yüksəldilməsinə xidmət edən sosial dövlətin də ali məqsədi budur.***









Güclü iqtisadiyyat hər şey deməkdir. Dəfələrlə sınaqdan çıxmış bu formulun yaxşı mənimsənilməsi, onun cəmiyyətin bütün inkişaf mərhələlərində insan həyatının firavanlığını, keyfiyyət səviyyəsini müəyyənləşdirən ən mühüm amil olduğunun sübuta yetirilməsi üçün heç də qeyri-adi möcüzə tələb olunmur. Çünki XXI əsr elə bir dövrdür ki, artıq qloballaşma və mədəniyyətlərarası dialoqun bütün vasitələri ilə dünyanın istənilən yerində əldə olunmuş nailiyyətlər qısa bir zamanda hər kəs tərəfindən asanlıqla qavranılaraq tətbiq edilir. Azərbaycan vətəndaşlarının layiq olduğu belə yüksək həyat səviyyəsi də vahid idarəetmə yolunun nəticəsi olaraq, əvvəlki dövrlərdə möcüzəli görünən bütün hədəflərin yalnız quru sözlə deyil, görülən real işlərlə bir-bir fəth edilməsi sayəsində əldə olunmuşdur. Beləliklə, hələ 10 il əvvəl ölkəmizdə planlaşdırılan hədəflərə çatmaq üçün görülən bütün kompleks tədbirlərin, insanların normal yaşayışı üçün yaradılan şəraitin, həyata keçirilən islahatların əhəmiyyəti indi açıq-aydın görünməkdədir. Bu məqsədlərə nail olmaq üçün ölkəmizin bütün sərvətlərindən və mövcud insan resurslarından səmərəli istifadə edilməsi tək seçim olmuş və nəticədə, müasir Azərbaycanın dinamik inkişafının mühüm şərti səbəb-nəticə əlaqələrinin məntiqi tələbi kimi özünü çox qısa müddətdə doğruldaraq, bütünlüklə cəmiyyətimiz üçün yeni strateji hədəflər yaratmışdır. Bütün bunlar isə, ümumilikdə, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosialyönümlü iqtisadi inkişaf strategiyasının ölkəmiqyaslı təntənəsidir. İndi hər sadə Azərbaycan vətəndaşı bu regionun ən təhlükəsiz, ən etibarlı, ən sabit və ən firavan ölkəsində yaşamaqla haqlı olaraq özünü dünyanın ən xoşbəxt insanı hesab edir. Çünki müstəqil Azərbaycan artıq bütün sahələrdə öz təhlükəsizliyini təmin etmiş, bu regiondakı bütün iqtisadi layihələrin böyük tərəfdaşı olan və yüksək texnologiyaların sürətlə tətbiqini özündə ehtiva edən irimiqyaslı sənayeləşmə yolunu tutmuş bir ölkədir. Bu yolun keçilməsi ilə əldə olunanlar həm ölkəmizin ümumi makroiqtisadi göstəricilərində, həm də regionların sosial-iqtisadi inkişafı fonunda açıq-aydın görünməkdədir.

Müasir Azərbaycanın ümumi inkişaf panoramında özünün intibah modeli ilə inkişaf edən Naxçıvan Muxtar Respublikası iqtisadi və sosial həyatın bütün sahələrində qazandığı uğurlarla xüsusilə diqqətəlayiq bir mərhələ keçmişdir. Bu inkişaf bəziləri üçün möcüzə kimi görünsə də, əslində, muxtar respublikanın son 18 ildə keçdiyi inkişaf yolunun məntiqi nəticəsi kimi tamamilə qanunauyğun bir haldır. Müstəqillik illərində ölkəmizin digər regionları kimi, öz simasını dəyişən Naxçıvanda, əslində, çoxlarının gözləmədiyi bir dinamik inkişaf dalğası yaşanmaqdadır. Söhbət əgər ölkəmizin digər regionlarından fərqli olaraq, Naxçıvan Muxtar Respublikasının düşdüyü blokada şəraitinin çətinliklərindən çıxarılmasından, region iqtisadiyyatının, demək olar ki, sıfır səviyyəsindən yenidən qurulmasından və əsasən, muxtar respublikanın yerli imkanları hesabına yüzlərlə yeni istehsal müəssisələrinin yaradıla bilməsindən gedirsə, bu zaman region iqtisadiyyatında inkişafın dayanıqlığının uzunmüddətli bir dövr üçün zəmanət altına alındığını indidən söyləmək olar.

Ötən dövr muxtar respublika iqtisadiyyatı üçün nə vermişdir? Zaman irəlilədikcə Naxçıvanda həyata keçirilən iqtisadi layihələrlə bərabər, eyni zamanda geniş sosial infrastruktur şəbəkəsinin formalaşdırılmasının yaratdığı həyat keyfiyyəti daha aydın görünməkdədir. Muxtar respublikada şəhərlə kənd arasında fərqlərin azaldılması, yerli xammal və ehtiyatlar hesabına yeni iş yerlərinin yaradılması bütün bu dövr ərzində daim diqqət mərkəzində olmuş, əhali gəlirlərinin artırılması, məşğulluq və məskunlaşma məsələləri dövlətin daimi qayğısına çevrilmişdir. Naxçıvanın nəqliyyat-kommunikasiya, enerji təminatı sahəsində düşmüş olduğu çətinlikləri dəf edərək öz potensialını ortaya qoyması, regionda ərzaq və enerji təhlükəsizliyinə tam nail olunması, ekoloji vəziyyətin nəzarətdə saxlanılması bu bölgə üçün bir zamanlar əlçatmaz olmuş hədəflər kimi artıq çoxdan geridə qalmış, Şərqlə Qərbin qovşağında, qədim Azərbaycan torpağında həyata keçirilmiş yeni quruculuq tədbirləri burada tarixiliklə müasirliyin uğurlu bir sintezini yaratmışdır. Beləliklə, müstəqil Azərbaycan inkişaf edib çiçəkləndikcə, onun tərkib hissəsi olan Naxçıvan da iqtisadiyyatında aparılan islahatçı tədbirlərlə öz avanqard rolunu qoruyub saxlamaqdadır.

İrəlidə isə Naxçıvanı yeni hədəflər gözləməkdədir. Təkcə 2003-cü ildən bəri iqtisadiyyatın real həcmində əldə olunmuş 12,5 dəfə, dövlət büdcəsinin həcmində 11,7 dəfə, sənayedə 45,4 dəfə, xarici ticarət dövriyyəsində 12,2 dəfə artımlar bu bölgənin indiyə qədər istifadə olunmamış potensialını ortaya qoymaqdadır. Bu dövrdə muxtar respublikada yaradılan 1000-ə yaxın istehsal və xidmət müəssisəsi və 60 minə yaxın yeni iş yeri bölgənin iqtisadi imkanlarının insan resursları ilə tamamlanması kimi çox mühüm potensialından xəbər verir. Bu, muxtar respublikada ixracyönlü iqtisadiyyatın qurulması üçün əla fürsət, geniş imkanlar deməkdir. Muxtar respublikada sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın genişləndirilməsində, əhali məşğulluğunda, regionun ucqarlarının iqtisadi imkanlarından istifadədə əldə olunmuş nəticələr burada həyata keçirilən iqtisadi və sosial siyasətin möhkəm özülünü təşkil edir. İqtisadi sahədə əldə olunmuş yüksək göstəricilər, ən əvvəl, sosialyönümlü xərclərin artırılması ilə müşayiət olunaraq mühüm sahələr üzrə özünü qabarıq surətdə göstərir. 2003-cü ildən bəri Naxçıvan Muxtar Respublikasında təhsilə çəkilən xərclər 5,1 dəfə, səhiyyə sahəsinə çəkilən xərclər 5,5 dəfə artmış, ümumilikdə, 95 təhsil və 85 səhiyyə müəssisəsi tikilib istifadəyə verilmişdir. Bu dövrdə muxtar respublikada əhalinin sosial müdafiəsi və təminatına çəkilən xərclər 55,1 dəfə çoxalmış, əhalinin gəlirləri 9,5 dəfə, əməkhaqqı 9,5 dəfə yüksəlmişdir.

***İqtisadi yüksəliş, sosial tərəqqi və mədəni intibah Naxçıvan Muxtar Respublikasının tarixi nailiyyətlərindəndir. Öz qətiyyətli rəhbəri ilə bunları reallığa çevirən naxçıvanlılar ölkə Prezidenti cənab İlham Əliyevi muxtar respublikaya hər səfərində yeni quruculuq ünvanları ilə sevindirirlər. "Mən çox şadam ki, qədim Naxçıvan bu gün yeniləşir, yenidən qurulur, gözəl binalar tikilir, xiyabanlar salınır", – deyən ölkə başçısı muxtar respublikanın ərazicə böyük torpaqdan ayrı düşsə də, daim onunla birgə yaşayıb inkişaf etdiyini, ölkəmizin inkişaf edən regionları arasında həmişə öz əhəmiyyətini və xüsusi çəkisini qoruyub saxladığını vurğu ilə qeyd edir. Bu, Naxçıvanın qəhrəman keçmişinə və bu gününə verilən layiqli qiymət, gələcək uğurlarına yüksək zəmanətdir.***

**Əli CABBAROV**

# Naxçıvan Muxtar Respublikası – 90




























ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: *AZ-7000,*
*Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Muxtar Məmmədov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 319